# Sonuncu dayanacağın sərnişinləri

**Aygün Adıgözəlova**



***Aygün Adıgözəlova Şəmkir rayonunun Dəllər qəsəbəsində anadan olub. Hazırda Z.Abbasov adına Dəllər qəsəbə orta məktəbində ingilis dili müəllimidir. "Düşüncələr" adlı esselər kitabı nəşr olunub.***

**(Hekayə)**

***Yenə yağış yağırdı bu gözəl şəhərə.Asfalt yollar şüşə kimi parıldayırdı.Asfaltın kənarında yenicə yaşıllığa bürünmüş otların üzəri yağış sularıyla yuyulmuş və ətrafa xoş qoxu yayılmışdı.Yağış yağsa da, hava soyuq deyildi.Bahar öz ılıq təmasıyla insanı oxşayırdı. Ayla avtobus dayanacağında avtobus gözləyirdi.Bu gün heç tələsmirdi.Həftə sonu olduğundan planlaşdırdığı işlərin həlliylə məşğul olacaqdı.Uşaqları da bu gün evdəydi, o evdən çıxanda hələ yuxudan oyanmamışdılar.Artıq böyümüşdülər və özləri özlərinə qulluq edə bilirdilər.Onlar bir neçə il idi vətənlərindən uzaq bir ölkədə yaşayırdılar, amma bu yad şəhər onlarçün doğmalaşmışdı. Ətrafdakı insanların dili də , psixologiyası da fərqli idi. Lakin bu, Aylanı heç narahat etmirdi.Əksinə azadlığına düşkün olan bu qadınçün burada yaşamaq çox xoş idi.Bahar gəlmişdi, yağışlar yağırdı tez-tez.Yağışın qoxusu dünyanın hər yerində eyni olurdu.Ona həyəcan verirdi.Aha, budur avtobus da gəldi və o tələsmədən avtobusa mindi.Çətirini yığmışdı.Üzərindəki su damcıları yerə tökülürdü.Saçları islanmasa da havadan nəm çəkmişdi.O, avtobusa mindi və adəti üzrə ayaqüstə dayandı, bir neçə boş oturacaq gözünə dəysə də oturmadı.Arxadan hənirti gəldi, kimsə heyrətlə onun adını çağırdı və yavaşca əliylə çiyninə toxundu:***

-Aylaa! Sənsən?

-Səs çox asta gəldi və bir az xırıltılı kimiydi.

Ayla əvvəl istədi çevrilsin, amma eləcə heykəl kimi dayandı.Arxadan onun qoxusunu hiss etdi və əynindəki dəri gödəkçənin xoş ətri ona doğma bir hiss verdi. Bu o idi:

- Fuad... Sənsən?!

Ayla inamsız və ehtiyatla dedi.

-Hə, mənəm.

Bir qədər sükut hökm sürdü.

Amma hər ikisi eləcə qalmışdı.Fuad onun qarşısına keçməyə cəsarət etmirdi. Ayla da arxaya çevrilmirdi.Fuad onun arxasında, çiyninin üstündə dayanmışdı.

Ayla həmin anda ayaqları kilidlənmiş kimiydi.Heç bir tərəfə tərpənə bilmirdi.Boğazı da qurumuşdu.Arxaya çevrilmək bu qədərmi çətin idi onunçün? İllər keçmişdi.Bəlkə də ona özünü göstərməkdən çəkinirdi.Bəlkə əvvəlki kimi gənc olmadığı üçün. Bəlkə qorxurdu ki, çevrilsə bütün sehr itəcək.Ya da bəlkə sadəcə həyəcandan nə edəcəyini bilmirdi.Beynində hissləriylə düşüncəsinin savaşıydı və Ayla bunun sonunu gözləməliydi.Fuad çətinliklə dilləndi:

***- Necəsən, əzizim?***

***-Nə? Əzizim?***

***Ayla iç səsiylə danışmağa başladı yenə. 'Səsindəki mehribanlıq dəyişməyib heç."***

***-Ayla, niyə mənə baxmırsan? Qorxma, mənə bax.***

***Ayla dillənmirdi, nə də tərpənə bilmirdi.Yalnız içində onu boğan bir qəhər varıydı.Göz yaşları bəbəklərində oynayırdı.Hələ yanağına axmamışdı.***

***Nəhayət ki, dillənməyə güc tapdı:***

***- Sən də burada yaşayırsan? Bu təsadüfdürmü yoxsa yuxudurmu?***

Halbuki o tamam başqa sözlər demək istəyirdi. Demək istəyirdi ki, səni görmək istəmirəm. Get. O vaxt getdiyin kimi. Demək istəyirdi ki, sənlə görüşümüz ən acı təsadüfdür.

Amma demədi. İstəmədi ki, Fuad onun içindəki bu qəzəbi hiss etsin. İstəmədi ki, qüruru qırıldığını ona hiss etdirsin.

Fuad gülümsədi:

- Səni izləyirdim , izinə düşdüm.

Sonra həmişəki kimi gülümsədi:

- Əlbəttə ki, təsadüfdür, nə ola bilər ki?

- Bu yaxınlarda köçmüşük bura.

Ayla onun gülümsəməyini hiss etdi.

***'Köçmüşük''sözündən anladı ki, Fuad tək deyil. Yəqin ailəsini nəzərdə tutur.Bunu onsuz da bilirdi, amma qəlbini bir qısqanclıq bürüdü. Ayla qısqanclıq anlarında həmişə onu acılayardı.Amma indi bunu birüzə vermək istəmədi və sükütu davam etdirdi. Fuad arxadan onun saçlarının qoxusunu içinə çəkdi. İçindən bir hiss onu qucaqlamaq, qoxlamaq istəyirdi, amma buna cəsarət edə bilmədi.Onun reaksiyasının nə olacağını təxmin edə bilmirdi. Heç olmasa çevrilsə, onun gözlərinə baxsa, bəlkə hər şey daha aydın olardı. Fuad oturacaqların yanındakı dirəkdən yapışmışdı. Qolu azca ona toxundu. Çox yaxında dayanmışdı, bəzən saçları da üzünə toxunurdu və Fuad Aylanın çiyninin üstdən onun boynuna baxırdı. Ayla sanki arxadan da onun baxışlarını hiss edirdi və saçlarını əlləriylə darayıb sol tərəfə gətirdi, Fuad isə sağ çiyninin üstündən onu daha yaxşı seyr edirdi.Ayla istədi çevrilsin onun gözlərini görsün. Bilmək istəyirdi ki, o baxışlar dəyişibmi yoxsa həmənkidir.***

Amma çevrilmədi, ürəyindən keçirdi ki, Fuad onun qarşısına keçsin.

Fuad elə bil onun qəlbindən keçənləri duydu və soruşdu:

- Sən nə qədər belə dayanmağı düşünürsən? Üzünü niyə göstərmək istəmirsən?

Ayla utandı, amma yenə də özünü saxlaya bilməyib dedi:

- Üzümü görmək istəyirsənsə sən addım at.

Bunu elə demişdi ki, Fuad bir göz qırpımında Aylanın qarşısına keçdi. Nəfəs nəfəsə dayandılar. Gözlər bir- birinə zilləndi. Aylanın bəbəklərindəki göz yaşları daha artıq tab gətirə bilmədi, axmağa başladı. Fuadın gözlərində sevinc qarışıq kədər vardı.O, bir əliylə onun yanağından göz yaşlarını sildi, bir əliylə də dirəkdən tutmuşdu.Avtobusda bir- iki nəfər qalmışdı.Amma onlar elə bil ki, tək idilər, heç kim yox idi ətraflarında. Ürəklərin döyüntüsü, bir-birinə deyəcəyi sözləri boğazda düyünləmişdi. Dodaqlar susmuşdu. Baxışlarda qınaq varıydı, həsrət, inciklik və çox dərində bir xoşbəxtlik hiss olunurdu. Hər ikisi bu baxışlardan məst olurdu. Bu anlar xeyli davam etdi və heç biri qarşısındakı mənzərədən gözünü çəkmək istəmirdi.Fuad Aylanın göz yaşlarını siləndən sonra saçlarını da oxşadı. Bunu elə gözəl edirdi ki, Ayla mane olmaq istəmədi. Ona çox şeylər demək istədi. Bəlkə də elə buradan arxasına baxmadan avtobusdan düşüb qaçmaq istədi.Ya da çoxdan istədiyi kimi ona var gücüylə bir sillə vurmaq... Bəlkə də yalnız ona sarılmaq istəyirdi... Bəlkə bütün bu qarışıq hisslərin səbəbi yalnız həsrət idi...

Avtobus sonuncu dayanacaqda dayandı və onlardan savayı kimsə yoxuydu. Məcbur düşməli idilər. Hamı çoxdan tərk etmişdi avtobusu. Qeyri- ixtiyari düşdülər aşağı. Sonuncu dayanacaqda üz-üzə dayandılar.Yağış kəsmişdi, amma səkinin kənarındakı hündür ağaclardan iri damcılar düşürdü aşağıya. Hər ikisi nə edəcəyini bilmirdi.Fuad dedi:

- Gedək harasa birlikdə oturaq hə? Əgər istəyirsənsə...

- Yox, istəmirəm!

Ayla kəskin dedi.

- Niyə?

- Elə!

Fuad onu yaxşı tanıyırdı. Bilirdi ki, bu davranışlar əslində onun istəkləriylə ziddir. Amma onun da cəsarəti çatmırdı ki, Aylanın üstünə düşsün. Əl-qolu bağlı hiss edirdi. Ayla güclə gülümsədi:

-Ayrılaq, Fuad. İllər öncə olduğu kimi. Bu sonuncu dayanacaq idi, daha gedəcək yol yoxdu.

Fuad heç nə deyə bilmədi. Sadəcə başıyla təsdiqləyə bildi. Ayla könülsüz üzünü çevirdi ki, getsin. Fuad isə arxadan astaca çağırdı:

- Aylaa!

***Ayla geri çevrildi. Fuad bir anda onun dodaqlarına yaxınlaşdı və həsrətlə öpməyə başladı. Ayla heç düşünmədən əlindəki çətiri yerə buraxdı və onu qucaqladı. Bu təmas bir neçə dəqiqə davam etdi və Ayla kənara çəkildi.S onra hər ikisi bir - birinə heyrətlə baxdı. Ayla ixtiyarsız yerə buraxdığı çətiri yerdən qaldırdı və sürətlə uzaqlaşmağa başladı. Fuad isə yerindəcə dayandı. Hər şey yuxu kimiydi. Onun arxasınca baxdı. Ayla heç arxaya çevrilmədi, çünki bilirdi ki, Fuad oradadı. Bəlkə bilirdi ki, arxaya çevrilsə, belə əminliklə uzaqlaşa bilməyəcək. Fuad isə öz özünə pıçıldadı:***

***- Bu sonuncu deyildi, əzizim. Biz yenə təsadüfən rastlaşacağıq. Mütləq rastlaşacağıq...***